**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**DİLBƏR ZAKİR QIZI ƏHMƏDOVA**

# CAHANGİR CAHANGİROVUN MAHNI YARADICILIĞININ XÜSUSİYYƏTLƏRİ

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

*Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Ramiz Fərzulla oğlu Zöhrabov**
Azərbaycan Respublikasının xalq artisti,
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Cəmilə İsmayıl qızı Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, dosent

**Afaq Abdul qızı Qəniyeva**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrası**

Müdafiə "_30__" iyun 2017-ci ildə saat 14:00da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" may 2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan xalqının görkəmli bəstəkarı Cahangir Cahangirov milli musiqi mədəniyyəti irsinə gözəl incilər bəxş etmiş, milli musiqi sənətinin inkişafında böyük rol oynamış sənətkarlardandır. C.Cahangirovun yaradıcılığı milli musiqi mədəniyyətinin inkişafı axarında formalaşmış və kamilləşmişdir. Bəstəkarın opera, kantata-oratoriya, xor, kamera vokal və instrumental musiqi, teatr və kino musiqisi sahələrində əldə etdiyi nailiyyətlər milli musiqi irsinə daxil olmuş, mədəniyyətimizin tanıdılmasında mühüm rol oynamışdır.

C.Cahangirovun operaları bəstəkarın yaradıcılığında mərhələ əsərlər olmaqla, Azərbaycan opera mədəniyyətində özünəməxsus yer tutmuş, mövzu və ənənələrin davamı baxımınından yeni səhifə açmışdır. Bəstəkarın kantata və oratoriyaları Azərbaycan musiqisinə bu janrın yüksək nümunələri kimi qəbul olunur. Eyni zamanda, C.Cahangirov musiqi tarixinə bir sıra musiqi janrlarının ilk nümunənələrini yaratmış bəstəkar kimi də daxil olmuşdur. Bu baxımdan, Skripka konserti onun sənətkarlığını nümayiş etdirən parlaq əsərlərdən biridir.

Bütün bu iri həcmli əsərlərlə yanaşı, C.Cahangirov həm də mahnı bəstəkarı kimi tanınmış, Azərbaycanın mahnı klassikasını yaradan bəstəkarlardan biri olmuşdur. O, öz mahnıları ilə bu janrda öz sözünü demiş və yüksək bədii keyfiyyətlərə malik fərdi dəst-xətti ilə seçilən mahnı üslubunu yaratmışdır.

C.Cahangirovun emosional, ürəyəyatımlı melodiyalar yaratmaq bacarığı vokal lirikası sahəsində - mahnı və romanslarında öz dolğun təcəssümünü tapmışdır. Bəstəkarın müxtəlif məzmunlu və rəngarəng xarakterli melodiyaları olduqca ahəngdar, təravətlidir. Onun melodiyaları təbiəti etibarilə vokal xarakterlidir. Buna görə də onun yaradıcılığında vokal əsərlər mühüm əhəmiyyətə malikdir.

Bəstəkarın mahnı və romansları musiqi forması, melodiya, harmoniya, ritm baxımından maraqlı cəhətləri ilə, milli xüsusiyyətləri ilə diqqəti cəlb edir. Onların araşdırılması C.Cahangirovun vokal üslubunun əsas xüsusiyyətlərini aşkarlamağa zəmin yaradır, onların bədii keyfiyyətlərini üzə çıxarmağa imkan verir.

C.Cahangirovun mahnı yaradıcılığının xüsusi olaraq araşdırılması musiqişünaslıqda aktuallıq təşkil edən mövzulardandır. Müasir dövrdə mahnı kimi geniş yayılmış, həcminə görə kiçik olan, lakin ictimai funksiyasına və mənəvi qüvvəsinə görə mühüm əhəmiyyətə malik olan bir janrda əsərlərin yaranması bəstəkarlardan böyük sənətkarlıq tələb edir. Bu

baxımdan Cahangir Cahangirovun yaradıcılığının öyrənilməsi aktualdır və həmişə diqqət mərkəzində olan mövzulardandır.

**Mövzunun işlənmə dərəcəsi**. Cahangir Cahangirovun yaradıcılığı bir çox musiqişünasların diqqət mərkəzində olmuşdur. Onun yaradıcılığı boyu demək olar ki, bütün səhnə əsərləri və iri həcmli vokal-instrumental əsərləri ilə bağlı mətbuat səhifələrində rəylər çap olunmuşdur.

Azərbaycan Milli Kitabxanası tərəfindən hazırlanmış "Cahangir Cahangirov. Biblioqrafiya"[1] adlı nəşrdə bəstəkarın əsərlərinin çapı, arxivlərdə saxlanılan əlyazmaları, onun haqqında rəylər, məqalələr, tədqiqat işləri (azərbaycan və rus dillərində) ilə bağlı dəyərli məlumat toplanmışdır.

Bir sıra musiqişünaslıq tədqiqatlarında C.Cahangirovun əsərləri bu və ya digər aspektlərdən araşdırılmışdır. Bəstəkarın həyat və yaradıcılıq yolu və əsərlərinin ümumi xarakteristikası Azərbaycan musiqi tarixi və musiqi ədəbiyyatı üzrə həm uşaq musiqi məktəbləri, həm orta ixtisas, həm də ali musiqi məktəbləri üçün dərsliklərə[2] və dərs vəsaitlərinə daxil edilmişdir.

C.Cahangirovun yaradıcılığına həsr olunmuş ilk broşura və monoqrafiyanın müəllifi musiqişünas-alim Solmaz Qasımova olmuşdur. Onun 1956-cı və 1964-cü ildə rus dilində nəşr olunmuş "Cahangir Cahangirov" adlı kitabçaları bəstəkarın yaradıcılığının müəyyən dövrləri və mərhələ əhəmiyyətli əsərləri haqqında ətraflı məlumatlarla və təhlillərlə zəngindir. Həmçinin, C.Cahangirovun "Azad" və "Xanəndənin taleyi" operalarının səhnə təcəssümü və təhlili S.Qasımovanın monoqrafiyalarında[3] öz əksini tapmışdır.

C.Cahangirovun yaradıcılığına həsr olunmuş iki dissertasiya işini qeyd etmək lazımdır. Bəstəkarın üslub xüsusiyyətlərinin tədqiqi Leyla Quliyevanın "Cahangir Cahangirovun musiqisində üslub xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyasında və məqalələrində[4] öz əksini tapmışdır. Müəllif bəs-

---

[1] Cahangir Cahangirov. Biblioqrafiya. (tərtib edəni T.Məmmədova). M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. B.: 2011.

[2] Hüseynova E., Kərimova N., Dadaşzadə K., Tağıyeva S., İsgəndərova N. Musiqi tarixi. Dərslik. B.: 2009.; Qasımova S., Bağırov N. Azərbaycan Sovet musiqi ədəbiyyatı. Bakı, 1984. /"Cahangir Cahangirov". s.177-188.

[3] Касимова С.Д. Джангир Джангиров. Б.: 1956.; Касимова С.Д. Джангир Джангиров. Баку: Азернешр, 1964.; Касимова С.Д. Оперное творчество композиторов советского Азербайджана. Ч.2. Б.: Ишыг, 1986.; Касимова С.Д. Из истории азербайджанской оперы и балета (1908-1988). Баку: Адильоглы, 2006.

[4] Quliyeva L.Z. Cahangir Cahangirovun musiqisində üslub xüsusiyyətləri. Sənətşünaslıq namizədi elmi dər. almaq üçün təqdim ed. Dissertasiyanın avtoreferatı. Bakı, 2005.; Quliyeva L.Z. "Füzuli" kantatası. // "Musiqi dünyası" jurnalı, № 3-4

təkarın əsasən iri həcmli əsərləri üzərində öz tədqiqatlarını aparmışdır. C.Cahangirovun kantata və oratoriyalarının təhlili Telman Qəniyev tərəfindən "Cahangir Cahangirovun kantata və oratoriya yaradıcılığında məqam-məqam və ritmik xüsusiyyətlər ("Füzuli" kantatası və "Sabir" oratoriyası əsərlərinin əsasında)" mövzusunda namizədlik dissertasiyasında[5] aparılmışdır.

C.Cahangirovun yaradıcılığının ayrı-ayrı sahələri – kamera-instrumental, vokal və xor əsərləri bir sıra musiqişünaslar tərəfindən Azərbaycanda müxtəlif janrların araşdırılması istiqamətində nəzərdən keçirilmişdir.

Fərəh Əliyevanın "XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə" monoqrafiyasında və məqalələrində[6] C.Cahangirovun yaradıcılığı timsalında "cənub" mövzusunun tədqiqi diqqəti cəlb edir.

İmruz Əfəndiyevanın "Azərbaycan sovet mahnısı" monoqrafiyasında və məqalələrində[7] C.Cahangirovun vokal yaradıcılığının araşdırılmasına diqqət yetirilmişdir. Georgi Burşteynin Azərbaycanda mahnı janrının inkişafına həsr olunmuş "Azərbaycanda kütləvi mahnı" məqaləsində[8] C.Cahangirovun da yaradıcılığı ilə bağlı dəyərli fikirlərə rast gəlirik. Ceyran Mahmudovanın "Mahnının qoşa qanadı – poeziya və musiqi" monoqrafiyasında və məqalələrində[9] C.Cahangirovun mahnı yaradıcılığının mətn xü-

---

(29), 2006. s.67-69.; Quliyeva L.Z. Cahangir Cahangirovun mahnıları. // "Musiqi dünyası" jurnalı, № 3-4 (25), 2005. s.150-154.; Quliyeva L.Z. Cahangir Cahangirovun sonatinası. // "Musiqi dünyası" jurnalı, №1-2 (31), 2007, s.54-56.

[5] Qəniyev T.X. Cahangir Cahangirovun kantata və oratoriya yaradıcılığında lad-məqam və ritmik xüsusiyyətlər ("Füzuli" kantatası və "Sabir" oratoriyası əsərlərinin əsasında). Sənətşünaslıq namizədi elmi dər. almaq üçün təqdim ed. Dissertasiyanın avtoreferatı. Bakı, 2004.

[6] Əliyeva F.Ş. XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə. B.: Elm, 2007.; Əliyeva F.Ş. Azərbaycan musiqisində qeyri-milli mövzuların təcəssümü (XX əsrin 50-ci illəri). // "Musiqi Dünyası" jurnalı, №1-2 (31), 2007, s. 149-152.; Əliyeva F.Ş. Azərbaycan musiqisinin cənub səhifəsi. // "Musiqi Dünyası" jurnalı, №3-4(33), 2007, s.98-99.; Əliyeva F.Ş. Ömrün müdrik çağı // "Bakı" qəzeti. 1991, 20 iyun.

[7] Эфендиева И.М. Азербайджанская советская песня. Б.: 1983.; Эфендиева И. Мугам и композиторское творчество. / ж. «Ирс - Наследие», № 2-3, 2006. с.44-45.

[8] Бурштейн Г. Массовая песня в Азербайджане. // В кн. «Азербайджанская музыка». Сборник статей. М.: Музгиз, 1961. С.256-276.

[9] Mahmudova C.E. Mahnının qoşa qanadı – poeziya və musiqi. B.: "Mars-print". B.: 2013.; Mahmudova C.E. Zərif gözəllik qəlb sirdaşı. // "Musiqi dünyası" jurnalı, № 3-4 (9), 2001. s.144-145.; Mahmudova C.E. Azərbaycan kinofilmlərində mahnıların rolu haqqında bəzi fikirlər. // "Musiqi dünyası" jurnalı, №3-4(33), 2007.

susiyyətlərinə həsr olunmuş tədqiqatları xüsusilə diqqətəlayiqdir. Mehriban Əhmədovanın "Azərbaycan bəstəkarlarının uşaq mahnılarının milli qaynaqları" namizədlik dissertasiyasında[10] C.Cahangirovun uşaq mahnılarına diqqət yetirilmişdir. Afaq Qəniyevanın "Azərbaycan bəstəkarlarının yaradıcılığında qəzəl-romanslar (janr, məqam-intonasiya və ritmika)" mövzusunda dissertasiyasında[11] bəstəkarın qəzəl-romanslarının təhlilinə rast gəlirik.

C.Cahangirovun instrumental əsərlərinin təhlili Əhməd İsazadənin[12], Tohid Quliyevin[13], Tərlan Seyidovun[14] tədqiqatlarında öz əksini tapmışdır.

Nailə Mirzəyevanın "Azərbaycanda kantata-oratoriya janrının təkamül yolları" adlı dissertasiyasında[15] janrın inkişafı baxımından C.Cahangirovun bu sahədəki xidmətləri dəyərləndirilmiş və kantata-oratoriya janrında bəstələnmiş əsərlərin təhlili verilmişdir. Leyla Məmmədova - Fərəcovanın "Azərbaycanın xor mədəniyyəti" monoqrafiyasında və məqaləsində[16] C.Cahangirovun Azərbaycanda xor musiqisinin inkişafı sahəsindəki nailiyyətləri tədqiq olunmuşdur.

Həmçinin, Gülarə Vəzirovanın[17], İnarə Məhərrəmovanın[18] tədqiqatları çərçivəsində C.Cahangirovun operalarının təhlili verilmişdir.

---

[10] Ахмедова М.Ф. Национальные истоки детских песен азербайджанских композиторов. Автореферат дисс… канд. искусствоведения. Б.: 2002.

[11] Qəniyeva A.A. Azərbaycan bəstəkarlarının yaradıcılığında qəzəl-romanslar (janr, lad-intonasiya və ritmika). Sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın Avtoreferatı. Bakı, 2011.

[12] İsazadə Ə. Azərbaycan Sovet bəstəkarlarının instrumental yaradıcılığı: kamanla çalınan simli musiqi alətləri. Bakı, Az.SSR EA nəşr., 1961.

[13] Кулиев Т. Азербайджанская камерно-инструментальная и концертная музыка для смычковых инструментов. Б.: АзГосИздат., 1971.

[14] Сеидов Т.А. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество. Б.: 2006.; Сеидов Т.А. Развитие жанров азербайджанской фортепианной музыки. Б.: Шур, 1992.

[15] Мирзоева Н. Пути становления кантатно-ораториального жанра в Азербайджане. Автореферат дисс. на соиск. Канд. искусствоведения. Баку, 1994.

[16] Мамедова Л.М. Хоровая культура Азербайджана. Б.: 2010.; Мамедова (Фараджева) Л.М. Творчество Джангира Джангирова в контексте хоровой культуры Азербайджана (к 90-летию со дня рождения). // журнал «Musiqi dünyası», №3, 2011, с. 94-96.

[17] Везирова Г. Мугамные оперы: история и современное состояние жанра. Баку: Элм, 2005.

[18] Məhərrəmova İ. «Azad» operasının musiqi dilinin xüsusiyyətləri. // "Musiqi Dünyası jurnalı, №3, 2011, s. 73-75.; Məhərrəmova İ. C.Cahangirovun

C.Cahangirovun yubiley tarixləri və əsərlərinin ilk ifası ilə bağlı məqalələr mətbuat səhifələrində öz əksini tapmışdır ki, onların müəllifləri olan musiqişünas-alimlərdən Ramiz Zöhrabovun[19], Zemfira Qafarovanın[20], bəstəkarlardan Səid Rüstəmovun[21], Rəşid Şəfəqin[22] və başqalarının, eləcə də Zeynal Cabbarzadə[23], Rəfiq Zəka Xəndan[24], Flora Xəlilzadə[25], Əziz Şərif[26], Möhbəddin Səməd[27] və digər yazıçı və şairlərin, jurnalistlərin yazılarını qeyd edə bilərik.

Musiqişünaslıq tədqiqatlarının icmalından göründüyü kimi, C.Cahangirovun yaradıcılıq yolu və yaradıcılıq sahələri müxtəlif aspektlərdən araşdırılmışdır. Bu tədqiqatlarda C.Cahangirovun opera, kantata-oratoriya, vokal və instrumental əsərlərinin təhlili aparılmışdır. Bütün bunları nəzərə alaraq, biz C.Cahangirovun mahnı yaradıcılığına xüsusi olaraq müraciət etmişik.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq, Cahangir Cahangirovun mahnı yaradıcılığı disser-

---

«Xanəndənin taleyi» operasının musiqi dili haqqında. // "Musiqi Dünyası jurnalı, №1(54), 2013, s. 112-114.

[19] Zöhrabov R. Bədii ifadə zənginliyi // "Ədəbiyyat və incəsənət" qəzeti. 1981, 1 yanvar.; Zöhrabov R. Lirik nəfəsli sənətkar // "Kommunist" qəzeti. 1991, 20 iyun.; Zöhrabov R. "Qələbə" oratoriyası // "Ədəbiyyat və incəsənət" qəzeti. 1987, 27 fevral.; Zöhrabov R. Qəlbdən qopan təranələr // "Bakı" qəzeti. 1971, 1 noyabr.

[20] Кафарова З.Г. Музыка – душа моя: к 70-летию со дня рождения Джангира Джангирова // газета «Вышка». 1991, 25 июня.

[21] Rüstəmov S. Hamımızın sevimlisi: Bəstəkar C.Cahangirovun 50 yaşı tamam olur // "Ədəbiyyat və incəsənət" qəzeti. 1971, 30 oktyabr.

[22] Şəfəq R. Musiqimizin fəxri // "Mədəniyyət" qəzeti. 1991, 20 iyun.; Şəfəq R. Ə.Ağayevin sözlərinə C.Cahangirovun bəstələdiyi "Göylərə yüksələn bayraq" mahnısı haqqında // "Mədəniyyət" qəzeti. 1992, 4 iyun. s.4.; Şəfəq R. Bitən ömrün bitməyən akkordları: Cahangir Cahangirov – 80 // "Qobustan" jurnalı. 2001, № 2. s.32-34.

[23] Cabbarzadə Z. Yüz yaşa, qardaşım. "Ədəbiyyat və incəsənət" qəzeti. 1971, 30 noyabr.

[24] Xəndan R. Füzuli nəğməkarı: C.Cahangirov – 70 // "Azərbaycan müəllimi" qəzeti. 1991, 8 iyul.

[25] Xəlilzadə F. Əbədiyaşarlıq tapan mahnılar: Cahangirov – 85 // "Azərbaycan" qəzeti. 2006, 21 iyun.

[26] Şərif Ə. Bir ömür – bir nəğmə. C.Cahangirov – 80 // "Yeni Azərbaycan" qəzeti. 2001, 26 iyun.

[27] Möhbəddin S. İnsan hisslərinin əlvan boyaları. // İncəsənət ustaları: oçerklər. Bakı: İşıq, 1987. s. 80-89.

tasiya səviyyəsində hərtərəfli tədqiq edilmiş, əsərlərinin musiqi dili və bəstəkarın üslub xüsusiyyətləri açıqlanmışdır.

Bəstəkarın müxtəlif janrlı vokal əsərləri - mahnı və romansları təhlil edilmiş, bu sahədə onun yaradıcılığının mövzu dairəsi, janr xüsusiyyətləri, xalq musiqisinə və muğama yaradıcı münasibəti, bundan yaranan yeni cəhətlər üzə çıxarılmışdır.

Azərbaycan xalq musiqisindən istifadə prinsiplərinin bəstəkarın musiqi dilinə təsiri nəticəsində musiqi üslubunun milli çalarlarla yeniləşməsi, melos, intonasiya və ritmikanın milli ifaçılıq sənətində rolu tədqiq olunmuşdur.

Cahangir Cahangirovun əsərlərinin bədii keyfiyyətləri, bəstəkarın yenilik axtarışları, xalq musiqisi və muğam ənənələrindən bəhrələnməsi sayəsində irəli gələn xüsusiyyətləri araşdırılmışdır.

Azərbaycanda mahnı janrının inkişafı baxımından Cahangir Cahangirovun bu janra gətirdiyi töhvə və onun yaradıcılığında tutduğu yer ilk dəfə olaraq, dissertasiya işi səviyyəsində işlənilmişdir.

**Dissertasiyanın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi C.Cahangirovun vokal yaradıcılığının tədqiqata cəlb olunmasından və onun mahnı və romanslarının musiqi dilinin məqam əsaslarının, melodika, forma quruluşunun öyrənilməsindən ibarətdir. Bu məqsəddən irəli gələrək, dissertasiya işində aşağıdakı vəzifələrin həlli qarşıya qoyulur:

– C.Cahangirovun yaradıcılığının səciyyəvi cəhətlərinin araşdırılması və onun əsas üslub xüsusiyyətlərinin göstərilməsi;

– C.Cahangirovun yaradıcılığının inkişaf mərhələlərinin tədqiqi və bu baxımdan mahnı janrının rolunun üzə çıxarılması;

– C.Cahangirovun vokal əsərlərinin mövzu dairəsi və janr rəngarəngliyi baxımından təhlili;

– C.Cahangirovun vokal əsərlərinin məqam əsaslarını, melodik və forma quruluşu xüsusiyyətlərini tədqiq etmək;

– C.Cahangirovun vokal yaradıcılığının özünəməxsus xüsusiyyətlərini aşkarlamaq və ümumiləşdirməkdən ibarətdir.

**Dissertasiyanın metodu və metodoloji əsası**. Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən, tarixi-nəzəri və müqayisəli təhlil metodundan istifadə edilmişdir.

Dissertasiyanın metodoloji əsasını musiqi nəzəriyyəsi ilə bağlı tədqiqatlar, musiqişünas alimlərin nəzəri müddəaları təşkil edir. Azərbaycan musiqişünaslarının – Üzeyir Hacıbəylinin, Məmmədsaleh İsmayılovun, Elmira Abasovanın, Gülnaz Abdullazadənin, Solmaz Qasımovanın, Zemfira Qafarovanın, Telman Qəniyevin, İmruz Əfəndiyevanın, Fərəh Əli-

yevanın, Cəmilə Həsənovanın, Şəhla Həsənovanın, Ceyran Mahmudovanın, Gülzar Mahmudovanın, Rəna Məmmədovanın, Ramiz Zöhrabovun və başqalarının Azərbaycan musiqisinə, bilavasitə bəstəkar yaradıcılığına və milli musiqinin nəzəri əsaslarına həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasına çevrilmiş, işdə bütün bu musiqişünasların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın predmetini** Azərbaycan musiqi nəzəriyyəsi baxımından bəstəkar Cahangir Cahangirovun yaradıcılığının özünəməxsus üslub xüsusiyyətlərinin öyrənilməsi, bəstəkarın yaradıcılığında vokal musiqi sahəsinin rolunun araşdırılması, onun mahnı və romanslarının əsas xüsusiyyətlərinin təhlil yolu ilə üzə çıxarılması təşkil edir.

**Tədqiqatın obyekti** C.Cahangirovun yaradıcılığında müxtəlif janr və formalı vokal əsərlərində musiqi dilinin xüsusiyyətlərinin təhlili, bəstəkarın yaradıcılıq üslubunda milli musiqinin qanunauyğun cəhətlərinin öyrənilməsi ilə bağlıdır.

**Dissertasiyanın materialı**. C.Cahangirovun ayrı-ayrı illərdə çap olunmuş mahnı və romansları, eləcə də bəstəkarın bir sıra vokal-instrumental və xor əsərləri tədqiqatın materialını təşkil edir.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti**. Tədqiqatın materiallarından, əldə edilmiş elmi müddəalardan gələcək elmi işlərdə, tədqiqat və mühazirələrdə, seminarlarda istifadə edilə bilər. Xüsusilə ali və orta ixtisas məktəblərinin nəzəri və praktiki kurslarında – "Azərbaycan musiqi tarixi", "Azərbaycan xalq musiqisinin əsasları" və s., habelə incəsənət sahəsini əhatə edən digər fənlərin tədrisində faydalı ola bilər.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Musiqi tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslarındakı çıxışlarında, yerli və xarici elmi məcmuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi Giriş, 3 fəsil, onların daxilində dörd bölmə, Nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "C.Cahangirovun yaradıcılığında mahnı janrının rolu"** adlanır. Bu fəsil iki bölmədən ibarətdir.

**1.1. "C.Cahangirovun mahnılarının yaranma tarixi və mövzu dairəsi"** araşdırılır. C.Cahangirovun yaradıcılıq yolu 1940-cı illərdən başlayır. Bu dövrdə onun yaradıcılığında dahi bəstəkar, musiqişünas və ictimai xadim, Azərbaycanda peşəkar bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin böyük rolu olmuşdur. C.Cahangirovun sənət prinsipləri məhz Ü.Hacıbəylinin təsiri altında formalaşmışdır. 1945-ci ildə C.Cahangirov Azərbaycan Dövlət Konservatoriyasına B.Zeydmanın bəstəkarlıq sinfinə daxil olmuşdur (1951-ci ildə bitirmişdir).

1940-cı ildən C.Cahangirov Ü.Hacıbəylinin rəhbərlik etdiyi Azərbaycan Dövlət Mahnı və rəqs ansamblınım xor qrupunda işə başlamış, sonra xora başçılıq etmişdir. Həmçinin, 1942-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının nəzdində sazçı qızlar ansamblının bədii rəhbəri olmuşdur. Daha sonra, 1944-cü ildən o, Azərbaycan televiziyası və radiosu xor kollektivinin bədii rəhbəri təyin olunmuşdur.

Bəstəkarın ilk əsərləri də həmin dövrə aiddir. O, rəhbərlik etdiyi xor üçün xüsusi olaraq mahnılar yazmış, həmçinin xalq mahnılarını xor üçün işləmişdir. Bu nümunələrdə o, Ü.Hacıbəylinin ənənələrinə əsaslanaraq, xor üçün xalq mahnı işləmələrinin əsas xüsusiyyətlərini əks etdirmişdir. 1944-cü ildə Tbilisidə keçirilən Zaqafqaziya respiblikalarının musiqi incəsənəti günlərində C.Cahangirovun rəhbərlik etdiyi sazçı qızlar ansamblı da böyük müvəffəqiyyətlə çıxış etmişdi.

1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə xalqın əhval-ruhiyyəsini, mübarizə ruhunu əks etdirmək üçün mahnı ən gözəl vasitəyə çevrilmişdi. Vətənpərvərlik və lirik mövzular C.Cahangirovun həmin dövrdə meydana gəlmiş mahnılarının aparıcı xəttini təşkil edərək, onun mahnı yaradıcılığında mövzu istiqamətini müəyyənləşdirmişdir.

Qəhrəmani-vətənpərvərlik ruhunda yazılmış "416-cı diviziya", "Partizan" mahnıları ilə yanaşı, bəstəkarın bir sıra mahnılarında cəbhə və əmək mövzusunun vəhdəti öz əksini tapır. Bunlardan "Qızların nəğməsi", "Bahar nəğməsi", "Durnalar", "Moskva haqqında mahnı" və s. xalq arasında məşhurlaşmışdır. Eyni zamanda, C.Cahangirov Azərbaycan Dövlət Filarmoniyasının rəhbərlik etdiyi Mahnı və rəqs ansamblı üçün də öz mahnıları əsasında kompozisiyalar hazırlayırdı. Bu baxımdan "Al bayraq" adlı kompozisiya tamaşaçı kütləsinin böyük rəğbətini qazanmışdı.

1945-1946-cı illərdə C.Cahangirov Azərbaycanın bir sıra mədəniyyət və incəsənət xadimləri ilə yanaşı, Cənubi Azərbaycanda gedən geniş miq-

yaslı mədəni quruculuq işlərində iştirak edir, Təbrizdə yaradılmış Azərbaycan Milli Filarmoniyasında fəaliyyət göstərir.

C.Cahangirov bu zaman şair Etimadın sözlərinə Demokratik Azərbaycan himnini, "Təbrizim" mahnısını (şeirin müəllifi göstərilməyib) bəstələmişdir. Bu mahnılar haqqında F.Əliyevanın "Azərbaycan musiqisinin cənub səhifəsi" məqaləsində məlumat verilmişdir. Bununla yanaşı, F.Əliyevanın "XX əsr Azərbaycan musiqisi: Tarix və Zamanla üz-üzə" monoqrafiyasında bu dövr daha geniş işıqlandırılmış və C.Cahangirovun bu dövrə aid daha bir neçə əsərinin adı çəkilmişdir: "İstiqlal marşı", M.Biriyanın sözlərinə "Xalq sürudu". Göstərilən mənbələrdə Demokratik Azərbaycan himninin və "Təbrizim" mahnısının poetik mətni və melodiyasının not yazısı verilmiş və təhlil olunmuşdur[28].

Cənubi Azərbaycanla bağlı mövzulara C.Cahangirov sonrakı illərdə də müxtəlif janrlı əsərlərində müraciət etmişdir. Onun mahnıları bəlkə də sovet rejiminin təsiri altında unudulmağa məruz qalsa da, C.Cahangirov bu mövzunu qəlbində yaşatmış və əsərlərində əbədiləşdirmişdir. Bu baxımdan C.Cahangirovun yaradıcılığında Mədinə Gülgün və Əli Tudənin sözlərinə yazılmış "Arazın o tayında" vokal-simfonik poemasını (1949), Mirzə İbrahimovun "Gələcək gün" romanının motivləri əsasında bəstələnmiş "Azad" operasını (1957) bu mövzunun davamı və inkişafı kimi qəbul etmək olar.

1940-cı illərin sonunda C.Cahangirovun yaradıcılığı müxtəlif janrlarda bəstələnmiş vokal və instrumental əsərlərlə - skripka üçün sonatina, xalq çalğı alətləri orkestri üçün rəqs, "Arazın o tayında" vokal-simfonik poeması, xor əsərləri, mahnı və romanslarla zənginləşir. Onlardan Nizaminin sözlərinə "Gül camalın" romansı, "Qəzəl" xoru dahi şairin 800 illik yubileyinə həsr olunmuş əsərlər silsiləsində özünəməxsus yer tutur. Vətəni, partiyanı tərənnüm edən təntənəli himn - "Partiya", sülh uğrunda mübarizə mövzusuna həsr olunmuş "Dünyaya sülh" mahnılarının adının çəkmək olar. 1948-ci ildə yazılmış "Mərdlik nəğməsi" respublika müsabiqəsində mükafata layiq görülür. "Qara gözlər" mahnısı C.Cahangirovun vokal irsində lirik məhəbbət xəttini davam etdirir. Həmin dövrdə həmçinin böyük rus şairi A.S.Puşkinin 150 illik yubileyi münasibətilə onun sözlərinə xor üçün müşayətsiz oxunan "Soruşma" mahnısı meydana gəlir.

---

[28] Əliyeva F.Ş. XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə. B.: Elm, 2007.; Əliyeva F.Ş. Azərbaycan musiqisinin cənub səhifəsi. // "Musiqi Dünyası" jurnalı, №3-4(33), 2007, s.98-99.

C.Cahangirov sonrakı illərdə xor sahəsində fəaliyyətini pedaqoji sahədə genişləndirmişdir. O, uzun illər boyu Azərbaycan Dövlət Konservatoriyasında xor üzrə dərs aparmış, xor dirijorluğu kafedrasına başçılıq etmişdir. Bu səbəbdən, xor sənətinin ustadlarından biri kimi tanınmış C.Cahangirovun əsərlərində xor böyük əhəmiyyət kəsb edir. Bəstəkarın bir sıra mahnılarında (xüsusilə nəqəratda) xordan istifadə etməsi onun yaradıcılığı üçün səciyyəvi hala çevrilmişdir.

1950-ci illərdə C.Cahangirov bir sıra iri formalı əsərlər yaratmışdır: Skripka və orkestr üçün Konsert, "Bayram" süitası, "Təntənəli yürüş", "Dostluq nəğməsi" süitası və başqa əsərləri qeyd etmək olar. Eyni zamanda, o, musiqili-teatr sahəsinə də müraciət edərək, "Azad" operasını (1957) bəstələmiş və bu əsər böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Bu illərdə C.Cahangirovun yaradıcılığında mahnı janrı daha geniş təmsil olunur. Onun bəstələdiyi "Nazənin" (Xaqaninin sözlərinə), "Xəzər", "Vətən qızları", "Bahar mahnısı", "Bahar olsun" mahnıları lirik mahnı janrının gözəl nümunələri kimi müğənnilərin repertuarında səslənir. Xüsusilə, "Ana", "Dan ulduzu, bir də mən", "Gözlərin" mahnıları böyük rəğbət qazanır. Bu lirik mahnılarda təmiz, saf məhəbbət hisləri tərənnüm olunur.Bəstəkar vətənə həsr olunmuş mahnı-himn, mahnı-marş, mahnı-vals janrında da əsərlər bəstələyir. "Vətən", "Bakı", "Ana Vətən", "Qarabağ" mahnıları bu qəbildəndir.

C.Cahangiovun yaradıcılığında teatr və kino musiqisi də xüsusi yer tutur. 1950-ci illərdən başlayaraq, C.Cahangirov bir neçə kinofilmə, Azərbaycan Milli Dram Teatrının, Gənc Tamaşaçılar Teatrının, Rus Dram Teatrının səhnəsində qoyulmuş bir sıra tamaşalara musiqi yazır. Bu əsərlərdə C. Cahangirov obrazların xarakterinin açılmasında mahnıya böyük yer vermişdir. Təsadüf deyil ki, bu qəlboxşayan mahnılar taetr tamaşalarından, ekrandan ayrılaraq, xalq arasında geniş yayılmışdır. Buna misal olaraq, C. Cahangirovun "Yenilməz batalyon" filmindən "Teymurun mahnısı"nı, "Koroğlu" filmindən "Rəqqasə qızın mahnısını", "Dəli Həsən"in mahnısını, "Dəli Kür" filmindən "Ana Kür", "Bayatılar" mahnılarını, "Ana laylası" pyesindən "Alagöz" adı ilə məhşurlaşmış "Lirik mahnı"nı və s. göstərə bilərik.

1960-cı illərdə kantata, oratoriya və xor əsərlərinin meydana gəlməsi C.Cahangirovun mahnılarının da ideya-bədii cəhətdən və professional səviyyə etibarilə yüksəlməsinə, musiqi dilinin zənginləşdirilməsinə təsir göstərmişdir. Bu illərdə C.Cahangirovun yaradıcılığında lirik mahnılarla yanaşı, satirik mahnı janrı da yer alır. Bu da böyük Azərbaycan satirik şairi Mirzə Ələkbər Sabirin 100 illik yubileyinin qeyd olunması ilə bağlı idi.

Bəstəkar yubiley ərəfəsində həm "Sabir" oratoriyasını, həm də şairin sözlərinə bir neçə satirik mahnılarını bəstələyir.

1960-70-ci illərdə Azərbaycan bəstəkarları mahnı janrının inkişafına xüsusi diqqətlə yanaşırdılar. Bu məsələ dəfələrlə Bəstəkarlar İttifaqının qurultaylarında və plenumlarında müzakirə olunur, bu sahədəki nailiyyətlər və çatışmayan cəhətlər qeyd edilirdi. Azərbaycan Bəstəkarlar İttifaqında Mahnı bölməsinə Cahangir Cahangirov başçılıq etməsi onun mahnı janrının inkişafındakı xidmətlərini bir daha qabarıq nümayiş etdirirdi.

Bəstəkarın mahnıları mövzu baxımından çoxcəhətlidir: vətən sevgisi, vətənin gözəlliklərinin təsviri, əmək adamlarının tərənnümü, lirik məhəbbət hisslərinin təcəssümü və s. Bu mahnılar həm poetik mətn əsasına, həm də musiqi üslubuna görə fərqlənir. Belə ki, C.Cahangirovun mahnılarında istifadə olunan həm heca vəzninə, həm də əruz vəzninə əsaslanan poetik formalar musiqi məzmunu ilə bilavasitə əlaqədar olub, onların melodik quruluşunu və musiqinin bədii ifadə vasitələrini təyin edir. C.Cahangirovun yaradıcılığının bütün mərhələlərində meydana gəlmiş mahnıları izlədikdə, onun böyük bir təkamül yolu keçdiyini, mövzu, obraz və janr cəhətdən rəngarəng nümunələrin yarandığını görürük.

**1.2. "C.Cahangirovun mahnılarının janr və üslub xüsusiyyətləri"** öyrənilir. Bəstəkarın musiqi irsinin əhəmiyyətli hissəsini təşkil edən mahnılarının mövzu və obrazlar dairəsi çox genişdir. Mahnıların mövzu müxtəlifliyi onların janr rəngarəngliyini də şərtləndirir. Müasir səslənməsi, dövrün tələbi ilə ayaqlaşması C.Cahangirovun mahnılarının başlıca xüsusiyyətidir.

Bir çox mahnıların janr xüsusiyyətləri adında və məzmununda proqramlaşdırılır. Məsələn, əmək mahnıları bu qəbildəndir: "Məhsul nəğməsi" (sözləri Rəfiq Zəkanındır), "Ağ şanı, qara şanı" (sözləri İslam Səfərlinindir) və s. Bu kimi mahnılarda insanların əməyə münasibəti, həvəsi təbiətin zənginliyinin təsviri ilə uzlaşır. Bu mahnıların fərqləndirici xüsusiyyəti kimi onların nikbin və ruhlandırıcı xarakterə malik musiqisini qeyd etməliyik. Musiqi dilinin bütün cəhətləri – məqam-intonasiya xüsusiyyətləri, melodikanın inkişafı, metro-ritmik quruluşu, harmonik dili, şeirin vəzni ilə melodiyanın vəhdətindən əmələ gələn oynaqlıq məzmunun açılmasına yönəldilir.

C.Cahangirovun mahnı yaradıcılığında mərasimlərlə bağlı mahnılara da rast gəlirik. Məsələn, "Bayram axşamı" (sözləri Şıxəli Qurbanovundur), "Tamada mahnısı" (sözləri Seyfəddin Dağlınındır) kimi mahnıların adından və məzmunundan onların xalqın həyat və məişətində mühüm əhəmiyyətə malik olan mərasimlərlə - birincinin Bahar bayramı ilə, ikincinin isə toy mərasimi ilə bağlı olduğu qeyd olunmalıdır.

C.Cahangirovun yaradıcılıq irsində xalq musiqisi janrları ilə bağlı mahnılar da vardır. Bunlardan “Ana ürəyi” pyesinə yazılmış musiqidən “Laylay” (sözləri İslam Səfərlinindir) – xalq musiqisində kök salmış ənənəvi laylay janrının bəstəkar yaradıcılığında təcəssümünü əks etdirir. “Bayatılar” (sözləri xalq bayatılarındandır) isə xalq şeirinə əsaslanan xalq mahnıları ruhunda yazılmış bir əsərdir.

Məzəli mahnılar isə xarakterinə görə rəqslə uzlaşır, bu baxımdan bəstəkarın bu iki janrı yanaşı verməsi diqqətəlayiqdir: “Məzəli mahnı ilə rəqs” (sözləri Zeynal Cabbarzadənindir) xor üçün yazılmış əsərdir. Mahnının xarakteri oynaq, şən-şuxdur. Geniş həcmli instrumental giriş xalq rəqsləri ruhundadır. “Məzəli mahnı ilə rəqs” Mahnı və rəqs ansamblı üçün nəzərdə tutulmuş kiçik həcmli əsərdir.

C.Cahangirovun mahnılarının böyük bir şaxəsini vətənpərvərlik mahnıları təşkil edir. Bu kimi mahnılar janr xüsusiyyətlərinə görə müxtəlifdir və ayrı-ayrı janrların birləşməsi bunların timsalında özünü aydın büruzə verir.

Vətənpərvərlik mahnılarının bir qolu vətənin tərənnümü ilə bağlı olan mahnılardır: “Azərbaycan” (sözləri Zeynal Cabbarzadənindir), “Bakı” (sözləri Zeynal Cabbarzadənindir), “Qarabağ” (sözləri Rəfiq Zəkanındır), “Gəncə” (sözləri İslam Səfərlinindir), “Gözəl şəhər” (sözləri Vaqif Vəkilovundur), “Bakı-Qahirə” (sözləri Zahid Məhəmmədindir, Azərbaycan dilinə tərcümə Yusif Həsənbəyindir) bu növ mahnılara misal ola bilər. Vətənin gözəlliklərinin təsviri, vətən məhəbbətindən doğan hisslər burada aparıcı rol oynayır. Bu da həm mahnının xarakterinə, həm də onun janr xüsusiyyətlərinə təsir edir. Bunun nəticəsi olaraq, himn xarakterli mahnılar üstünlük təşkil edir.

Bunlarla yanaşı, C.Cahangirovun bilavasitə “Vətən” adı ilə bağlı mahnıları da çoxdur. Bu mahnılar da janr xüsusiyyətlərinə görə müxtəlifdir. Bununla belə, vətənin ümumiləşmiş obrazının tərənnümü bu mahnıların aparıcı xəttini təşkil edir və məğrur, qürurlu, möhtəşəm xarakteri ilə seçilir. Bu mahnıları mahnı-marş, mahnı-himn, mahnı-ballada və s. kimi xarakterizə etmək olar.

C.Cahangirov mahnı janrında yazdığı hər bir əsərin mövzusuna xüsusi diqqət yetirmiş, melodiyanın mətnə uyğun gəlməsinə çalışmışdır. C.Cahangirovun Rəfiq Zəkanın sözlərinə bəstələnmiş “Qarabağ” mahnısı deyilənlərə parlaq misaldır. Mahnıda müəlliflər Qarabağın adının dillər əzbəri olmasından, gözəllər diyarına çevrilməsindən, gözəl səslərin, muğamların beşiyi, min-bir dərdin dərmanı olmasından fəxrlə söz açırlar. Mahnının yaranmasından onilliklər keçməsinə baxmayaraq, o, bu gün də təsirli səslənir.

C.Cahangirovun mahnıları sırasında mübariz ruhlu mahnılar da var ki, bunları vətənpərvərlik mahnılarının bir qolu hesab etmək olar. “Yenilməz

batalyon" kino-filmindən "Teymurun mahnısı"nı (sözləri Tələt Əyyubovundur) bu qəbildəndir.

C.Cahangirovun mahnı yaradıcılığında lirik mahnılar üstünlük təşkil edir. Bu janra aid olan nümunələrdən: "Ana ürəyi" pyesinə yazılmış musiqidən "Lirik mahnı"nı (sözləri İslam Səfərlinindir), "Dan ulduzu, bir də mən" (sözləri İslam Səfərlinindir), "Lirik mahnı" (sözləri Zeynal Cabbarzadənindir), "Gözlərin" (sözləri Ənvər Əlibəylinindir), "Ay qız" (sözləri Zeynal Cabbarzadənindir), "Buludlar" (sözləri İslam Səfərlinindir), "Zəriflik" (sözləri İslam Səfərlinindir), "Həyat eşqi" (sözləri Mikayıl Müşfiqindir), "Zərif gülüşlüm" (sözləri İslam Səfərlinindir). Bu kimi mahnıların məzmunu məhəbbət hisslərinin təcəssümü, sevgili yarın surətinin vəsfi, romantik günlərin xatirələri ilə bağlıdır.

Bəstəkar lirik mahnılarında məhəbbət hisslərini təbiətin gözəlliklərinin təsviri ilə qovuşdurmağa çalışır: "Bənövşə" (sözləri İslam Səfərlinindir), "Çiçəklər" (sözləri Zeynal Xəlilindir), "Xəyyam" tamaşasından "Jalələr" (Xəyyamın bayatıları), "Sevdanın romansı" (sözləri Hüseyn Cavidindir), "Badə gözəldir" (sözləri Hüseyn Cavidindir) "Koroğlu" kino-filmindən Rəqqasə qızın mahnısı (sözləri Zeynal Cabbarzadənindir) bu qəbildəndir.

Digər cəhətdən övlad məhəbbəti ilə bağlı mahnıların da lirik mahnılara aid edilməsi ilə bağlıdır. Məsələn, "Ana" (sözləri İslam Səfərlinindir), "Ata nəsihəti" (sözləri İslam Səfərlinindir), "Nigar qızım" (sözləri Rəfiq Zəkanındır) kimi mahnılar xarakterinə görə lirik mahnı janrına yaxın olsa da burada nəsihətamiz fikirlər üstünlük təşkil edir.

C.Cahangirovun mahnı irsində xarici şairlərin sözlərinə lirik-fəlsəfi ruhlu mahnılar da müəyyən yer tutur. Məsələn, "Ballada" (sözləri İran şairəsi Siminindir), **a kapella** xoru üçün "Kərəm kimi" (sözləri Nazim Hikmətindir), "Yanmamış papiros" (sözləri Nazim Hikmətindir) və s. mahnılar buna misal ola bilər.

C.Cahangirovun uşaq mahnıları da diqqətəlayiqdir. Onlardan "Pioner yürüş mahnısı" (sözləri Ənvər Əlibəylinindir), "Dəniz" (sözləri Aslan Aslanovundur), "Köhlən atım" (sözləri Aslan Aslanovundur), "Mahnı və rəqs" (sözləri Mirmehdi Seyidzadənindir), "Tonqal ətrafında" (sözləri Aslan Aslanovundur) və s. mahnılar öz janr xüsusiyyətlərinə görə diqqətəlayiqdir. C.Cahangirov uşaq mahnılarına da öz bədii dəsti-xətti ilə yanaşmışdır. O, öz mahnılarında dostluğu, vətənə, təbiətə və əməyə məhəbbəti tərənnüm edir.

C.Cahangirovun vokal musiqi sahəsindəki əsərləri təkcə mahnı janrı ilə bağlı deyildir. Onu yaradıcılığında həmçinin, qəzəl-romans janrında yazılmış əsərlərdə mühüm yer tutur. Bunlardan bəziləri öz quruluşuna görə

ənənəvi romanslara yaxındır. Bu növ əsərlərində C.Cahangirov klassiklərin yaradıcılığına müraciət edərək, Nizaminin qəzəlləri əsasında "Gül camalın" romansını, xor üçün "Qəzəl" əsərini, Xaqaninin sözlərinə "Nazənin" romansını, Nəsiminin qəzəli əsasında "Ənəlhəq" mahnı-romansını, Füzulinin sözlərinə "Eşitməzdim" qəzəl-romansını və b. bəstələmişdir.

Bəstəkarın mahnılarının üslub xüsusiyyətlərinə görə fərqliliyini qeyd edə bilərik. Məsələn, "Ağ şanı, qara şanı", "Məhsul nəğməsi", "Süfrə mahnısı" xalq mahnı üslubunda olub, oynaq ritmikaya, rəvan hərəkətli melodikaya malikdir. Bənd-nəqərat formasında yazılmış həmin mahnılar üçün şən-şux, nikbin əhval-ruhiyyə səciyyəvidir. Xalq musiqisi üçün xarakter olan melodik inkişaf, məqam əsası, metro-ritmik cəhətlər bu mahnılarda qabarıq əks olunur.

C.Cahangirovun lirik səpkili mahnılarında da xalq mahnılarına xas keyfiyyətlər özünü göstərsə də, onlar musiqi dilinə görə fərqlidir. Belə ki, burada xalq mahnısından daha artıq, romans janrının xüsusiyyətləri ön plana çıxır. Xüsusilə də bu, geniş inkişaflı, axıcı melodikada özünü büruzə verir ki, bu da öz üslubuna görə muğamla bağlıdır. Belə mahnılardan "Zəriflik", "Alagöz", "Ana" və b. göstərmək olar.

Beləliklə, Cahangir Cahangirovun yaradıcılığının dərin kökləri muğam və xalq musiqi sənəti ilə sıx bağlıdır. Bu baxımdan muğam və xalq musiqisi ənənələri ilə C.Cahangirovun yaradıcılığının əlaqəli surətdə tədqiqi xüsusi əhəmiyyətə malikdir.

Dissertasiyanın **II fəsli "C.Cahangirovun mahnılarının məqam əsaslarının təhlili"** adlanır. Bu fəsil iki bölmədən ibarətdir.

**2.1. "Bir məqama əsaslanan mahnılar"** tədqiq olunur. C.Cahangirovun mahnılarının məqam əsaslarının təhlilini Azərbaycan məqam sisteminə uyğun araşdırmışıq. Bu baxımdan rast, şur, segah və digər məqamlara əsaslanan mahnılara ardıcıl olaraq diqqət yetirmişik.

C.Cahangirovun rast məqamına əsaslanan mahnılarından biri "Bakı-Qahirə" mahnısıdır. "Bakı-Qahirə" mahnısının bir sıra xüsusiyyətləri - zəngin, dolğun fakturası, əzəmətli tempi (Maestoso), yüksək poetik hisslər aşılayan mətni himn janrının tələblərindən irəli gəlir. Mahnıdakı ifadə tərzi - 4 səsli xor partiyasının ifasında səslənən melodiya, ahəngdar harmoniyalar və s. möhtəşəm obrazların yaradılmasına xidmət edir. Mahnı "si" mayəli rast məqamına əsaslanır və sadə üç hissəli formada yazılmışdır. Melodik xəttin rast məqamının pillələri üzrə (kulminasiyadan mayəyə) aşağı istiqamətdə kiçik diapazonlu motivlərlə aramlı hərəkəti rəvayət cizgilərini ön plana çəkir. Ümumiyyətlə, mahnının melodikası yüksələn xətt

üzrə inkişafda verilir ki, burada da muğam dramaturgiyası ilə uyğunluq yaranır: I hissə - bəmdə, aşağı registrdə, basların ifasında, II hissə - orta registrdə, III hissə - yuxarı registirdə - zildə səslənir.

C.Cahangirovun "Bakı", "Gözlərin", həmçinin, "Koroğlu" filmindən "Koroğlunun mahnısı", "Rəqqassə qızın mahnısı" və s. mahnıları şur məqamına əsaslanır.

"Koroğlu" kinofilmindən "Koroğlunun mahnısı" məşhur xalq qəhrəmanının surətini xarakterizə edərək, aşıq havalarına çox yaxındır. Mahnının ilk xanələrindən onun onun hay vurub igidlərini döyüşə səsləməsi musiqiyə gümrah, mübariz bir ruh aşılayır. Mahnı aşıq havaları üçün səciyyəvi olan "sol" şur məqamına əsaslanır. Şur məqamının müxtəlif pillələrinə istinad melodiyanını xarakterini dəyişməklə yanaşı, həm də dramaturji inkişaf xəttini müəyyən edir. Mahnının bölmələri ardıcıl olaraq "Mayəyi-şur", "Hicaz", "Səmayi-şəms", "Şur-Şahnaz" və "Mayeyi-Şur" şöbələrinin intonasiya xüsusiyyətlərinə uyğundur. Melodiyanın quruluşu, hərəkət xətti, metroritmik xüsusiyyətləri aşıq havalarının səciyyəvi xüsusiyyətlərini əks etdirir.

Bir sıra mahnılar segah məqamına əsaslanır. "Ana" mahnısında "fadiyez" mayəli segah məqamının istinad pillələri mahnının bölmələrinin quruluşunun əsasını təşkil edir. Melodiya məqamın mayəsindən – "fadiyez" səsindən başlanaraq, yüksələn hərəkətlə "si" və "re" səslərinə çatdırılır. Mahnının nəqəratı ekspressiv xarakter daşıyır. Nəqəratın başlanğıcında oktava sıçrayışı sayəsində diapazonun genişlənməsi, dinamikanın artırılması ilə müşayiət olunur. Yüksəlişdən sonra mahnının ikinci bölümündə yenidən sakit ifadə tərzi bərpa olunur ki, bu da düşüncənin dəyişilməsi kimi səciyyələnir. Melodiyada hər sekvensiya bölümü müxtəlif səs boyaları ilə təsvir olunur və bununla da enən hərəkətli melodiyanı canlandırır. Sekvensiyanın sonuncu bölümünü reçitativ xarakteri kəsb edir. Sonda "əziz ana" sözlərində kadensiyada muğam gəzişməsindən istifadə edilir.

C.Cahangirovun mahnıları sırasında bayatı-şiraza əsaslanan mahnılar çoxlur təşkil edir: "Zəriflik", "Dan ulduzu bir də mən", "Buludlar", "Gözəl şəhər" və s. bu qəbildəndir.

"Buludlar" mahnısı – bayatı-şiraz məqamının dayaq pillələri əsasında qurulmmuşdur. Mahnının məqam-tonallığında "sol-bemol" mayəli bayatı-şiraz əsas götürülür. Mahnının kompozisiya quruluşunda "Bayatı-Şiraz" muğamının əsas şöbələrinin xüsusiyyətləri öz əksini tapır. Kuplet – "Bayatı-İsfahan" şöbəsinin istinad pilləsində, nəqəratın birinci bölməsi "Zil Bayatı-Şiraz"da, ikinci bölməsi mayədə qurulur. Məqamın səssırasında bunlar aşağıdakı istinad pillələri ilə xarakterizə olunur: "Bayatı-Şiraz"ın

mayəsi – IV pilləyə, "Bayatı-İsfahan" – II pilləyə (bir oktava yuxarıda), "Zil Bayatı-Şiraz" – mayənin oktavasına istinad edir.

Bir sıra mahnılar şüştər məqamına əsaslanır. Məsələn, Əfzələddin Xaqaninin sözləri əsasında bəstələnmiş "Nazənin" romansının melodik quruluşu şüştər məqamına əsaslanır. Şüştərin səs sırasında istinad pillələri ətrafında gəzişmə və bu pillələrə dayaqlanma aydın və səlis quruluşlu bir melodiyanın meydana gəlməsinə səbəb olmuşdur. Bu qəzəl-romansın melodik və quruluş xüsusiyyətlərinin şüştər təsnilərinə uyğunluğu özünü qabarıq göstərir.

Beləliklə, C.Cahangirovun bir məqama əsaslanan mahnılarının melodik və forma quruluşunda məqamın istinad pillələri mühüm rol oynayır. Mahnının kompozisiyasında muğamın quruluşuna, şöbələrin ardıcıllığına uyğunluq özünü göstərir.

**2.2. "Bir neçə məqam əsasında qurulmuş mahnılar"** araşdırılır. C.Cahangirovun mahnıları arasında elə mahnılar var ki, bir neçə məqamın qarşılaşdırılmasına əsaslanır. Bu zaman özünü göstərən əlaqə prinsipləri forma quruluşunun əsas amillərindən birinə çevrilir.

"Çiçəklər" mahnısı sadə üç hissəli formada yazılmışdır. Melodiyada melizmlərdən, triol, kvartol kimi ritmik qruplardan, sinkopalı, punktirli ritmlərdən istifadə, 6/8 ölçünün bəzən 3/4 kimi şərh olunması improvizasiya üslubuna uyğundur və musiqiyə lirik cizgilər aşılayır. Bu mahnı iki məqama – şüştər və rast məqamına əsaslanır. Bəstəkar bu məqamlardakı ümumi səslərdən istifadə edərək, sərbəstliklə bir məqamdan digərinə keçid yaradır. Məqam dəyişməsi, melodiyanın diapazonunun genişlənməsi, akkord fakturasının sıxlaşdırılması hissələr arasında kontrastlıq əmələ gətirən əsas amillərdəndir.

"Yenilməz batalyon" filmindən "Teymurun mahnısı"nda məqam qarşılaşdırılması əsərin quruluşuna təsir edən amil kimi çıxış edir. Bu üsuldan bəstəkar poetik mətndəki fikir dəyişikliyini və bundan yaranan əhval-ruhiyyəni nəzərə çarpdırmaq üçün istifadə edir. Bu mahnıda iki məqamın - rast və çahargahın qarşılaşdırılmasını görürük. Bir tərəfdən, rast mərdlik hislərini, digər tərəfdən isə çahargah həyəcanlı əhval-ruhiyyəni gözəl əks etdirir, bu da mahnının məzmunu ilə üzvi vəhdət yaradır. Diqqətəlayiq cəhətlərdən biri də odur ki, bəstəkar eyni mayəyə ("re" səsinə) istinad edən rast və çahargah məqamlarından istifadə edir. Bu üsul bir məqamdan digərinə keçmək üçün daha çox sərbəstlik yaradır və melodiyada rəngarəng çalarlar əmələ gətirir.

"Ana ürəyi" pyesinə yazılmış musiqidən "Laylay" mahnısı xalq arasında geniş yayılmış laylaların intonasiyalarına əsaslanır. Mahnı lirik xarakter daşıyır. Bu əhval-ruhiyyə artıq instrumental girişdə özünü göstərir.

Giriş laylay ruhunda müstəqil instrumental pyes xarakteri daşıyır. Mahnı üç hissəli formadadır. Məqam qarşılaşdırılması forma quruluşunda əsas rol oynayır: I hissə - "re" bayatı-şiraz məqamında, II hissə - "sol" şüştərdə ("Tərkib" şöbəsinin istinad pilləsinə istinadla), III hissə (repriza) - "re" bayatı-şiraz məqamındadır. "Lay-lay" mahnısında qəmginlik gətirən bayatı-şiraz və dərin kədər hissi oyadan şüştər məqamlarından istifadə mahnının məzmununa və ruhuna çox uyğundur.

"Azərbaycan" mahnısında üç məqamdan – rast, şüştər, çahargah məqamlarından istifadə olunub və hər üç məqamın mayəsi "si" səsidir. "Si" səsi, demək olar ki, mahnının dramaturji özəyinə çevrilir. Mahnının tonal planı bu səs ətrafında qurulur. Əsərin formasının əmələ gəlməsində melodiyadakı məqam dəyişikliyi böyük rol oynayır. Melodiyanın inkişaf xətti boyu qeyd etdiyimiz məqamların şərhi də maraq doğurur: mayə pilləsi açıq şəkildə, birdən-birə təzahür etmir, müəyyən pillələr üzərində gəzişmədən sonra özünü büruzə verir ki, bu da, əlbəttə, muğamla bağlı bir xüsusiyyətdir.

Beləliklə, C.Cahangirovun mahnılarının məqam əsasının təhlili bəstəkarın musiqi dilinin səciyyəvi cəhətlərini üzə çıxarmağa imkan verir. C.Cahangirovun mahnılarının bir və bir neçə məqama əsaslanmaqla bölgü aparılması onların məqam əsasının xüsusiyyətlərini üzə çıxarmağa və intonasiya xüsusiyyətlərini açıqlamağa imkan verir.

Dissertasiyanın **III fəsli "C.Cahangirovun mahnılarının melodic və forma quruluşunun əsas cəhətləri"** adlanır. C.Cahangirovun mahnılarında mövzunun dərindən açılması bəstəkarın yaradıcılıq təfəkkürü ilə bağlı özünəməxsus cizgilərlə musiqi dilinin milli ənənələrlə vəhdəti ilə bağlılığında öz əksini tapır. Mahnının mövzusundan irəli gələn xarakterik xüsusiyyətlər musiqi quruluşunda, melodik intonasiya səviyyəsində, metro-ritmik cəhətlərdə öz təzahürünü tapır. Xalq mahnılarının melosunun bəstəkar musiqi dilinin xüsusiyyətləri ilə müqayisəli təhlili maraqlı müşahidələr verir.

Azərbaycan milli musiqisində enən tipli sekvensiyalı hərəkət və məqamın tamamlayıcı tonuna qədər aşağıya doğru istinad-dayaq pillələrinin tipik yerdəyişməsi diqqətəlayiqdir. Sekvensiya təkcə melodiyanın təşkili funksiyasını deyil, həm də tematizmin inkişafı funksiyasını daşıyır. "Qarabağ", "Gəncə" mahnılarının musiqi materialının inkişafında xalq musiqisindən gələn bir sıra xüsusiyyətlər özünü göstərir: musiqinin quruluşundakı təkrarlıq və variantlı təkrarlanmalar, melodiyanın məqamın istinad pilləsi ətrafında gəzişərək qurulması və sekvensiyavari hərəkətlə inkişaf etdirilməsi bu qəbildəndir.

Eyni zamanda, bəstəkarın muğamları dərindən bilməsi muğam üslubunda melodiyalar yaratmasını şərtləndirmişdir. Bir çox mahnıların timsalında

bunu görürük. Muğamvari inkişaf xüsusiyyətləri geniş nəfəsli melodiyalarda özünü göstərir. C.Cahangirovun mahnılarının lirik təbiəti onların xalq mahnı melodiyalarına və təsniflərə xas olan xarakter cizgilərini üzə çıxarır.

Bəstəkarın mahnılarında tez-tez qarşılaşdığımız melodik struktur növlərindən biri xalq mahnılarına xas olan kvarta (və ya kvinta) sıçrayışı intonasiyasının tədricən doldurulması, zənginləşdirilməsidir. Bu baxımdan şüştər məqamında qurulan "Nazənin" romansının, bayatı-şiraz məqamına əsaslanan "Zəriflik" mahnısının başlanğıcında kvarta sıçrayışlı intonasiya özəyi melodik inkişafa təkan verməklə, həyəcanlı duyğuları üzə çıxarır.

Sıçrayışlı və yüksələn hərəkət sayəsində melodiyanın diapazonu genişləndirilərək oktavaya çatdırır, daha sonra enən hərəkət xətti tonikada yekunlaşır. "Xəyyam" tamaşasından "Sevdanın romansı", Hüseyn Cavidin sözlərinə yazılmış "Badə gözəldir" mahnısı maraqlı melodik xüsusiyyətlərə malikdir, melodik quruluşda təkrarlanan kvartalar özünəməxsus şəkildə melodiyada ruh yüksəkliyi yaradaraq, onu dinamikləşdirir.

C.Cahangirovun mahnılarında kulminasiyanın parlaq dinamik göstərilməsi xarakterik cəhət kimi qeyd olunmalıdır. Əksər mahnılarda kulminasiya anı nəqəratın başlanğıcına və ya orta bölməyə təsadüf edir. Bu zaman melodiyanın yüksək zirvədə dayaq tonuna istinad olunması birbaşa geniş interval məsafəsinə geniş sıçrayışla baş verir. "Tamada mahnısı"nda, "Gözəl şəhər" mahnısında bunu görürük.

C.Cahangirovun mahnılarında əksər hallarda müşahidə edilən melodik struktur növü - düz melodik xəttə əsaslanan və muğamların-intonasiya ahənginə malik quruluşlardır. Belə mahnılara nümunə olaraq, "Buludlar", "Ana", "Zəriflik", "Zərif gülüşlüm" və s. mahnılarını misal göstərə bilərik.

C.Cahangirovun mahnılarının əksər hissəsində xalq musiqi təcrübəsində tez-tez rastlaşdığımız müəyyən bir pillənin "oxunması" və ya pillə ətrafında gəzişmə üzərində qurulan melodik struktur özünü göstərir. C.Cahangirovun "Bakı", "Ay qız" mahnıları bu qəbildəndir. Melodik quruluş özünəməxsus improvizasiyalı xarakterli səslənmə əmələ gətirir.

C.Cahangirovun mahnılarında improvizə təbiətli melodiyalara çox rast gəlirik. Adətən bu hallarda melodiya ornament və bəzəklərlə zənginləşdirilir. Bir çox mahnıların melodiyası yüksələn-enən xətt üzrə məqamın pillələri üzərində gəzişməklə qurulur. Burada "dalğavari" melodik hərəkət növü özünü qabarıq göstərir.

C.Cahangirovun mahnılarının melodik və forma quruluşu xüsusiyyətləri olduqca zəngindir. Bəstəkar xalq mahnılarından, aşıq havalarından, muğamlardan və təsniflərdən bəhrələnərək, musiqi dilində onların ən əhə-

miyyətli və səciyyəvi xüsusiyyətlərindən istifadə etmişdir. Bütün bunların araşdırılması bəstəkarın mahnı üslubunun əsas xüsusiyyətlərinin hərtərəfli xarakterizə edilməsinə yol açır.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd edilir.

C.Cahangirovun mahnı yaradıcılığının əsas xüsusiyyəti onun melodik üslubu ilə bağlıdır. Bəstəkarın mahnılarının dərin və mənalı məzmunu onun xalq musiqisi və muğam intonasiyalarına fərdi münasibəti ilə əlaqədardır. Özündə mahnı janrının ən mühüm və səciyyəvi keyfiyyətlərini cəmləşdirən C.Cahangirovun mahnılarında xalq musiqi mənbəyindən gələn məqam-intonasiya əsası, struktur və kompozisiya xüsusiyyətləri vəhdət halında özünü göstərir. Xalq mahnılarının və muğamların xarakterik keyfiyyətləri yaradıcı şəkildə işlənib müasir kütləvi mahnı janrının xüsusiyyətləri ilə qovuşaraq, C.Cahangirovun vokal musiqisinə parlaq özünəməxsusluq bəxş etmişdir.

Musiqi dilində melodiyanın və harmoniyanın vəhdəti, lirik-epik ifadə tərzi bəstəkarın yaradıcılıq üslubuna xas olan cəhətlərdir. Vokal əsərlərdə instrumental müşayiət melodiyaya harmonik fon təşkil edir. Zəngin akkordlu və ya polifonik faktura melodiyanın daha ifadəli səslənməsinə xidmət edir. Bu cür faktura əsasən instrumental girişdə və kulminasiya zamanı verilir. Harmoniya məqamın istinad dayaq pillələri üzərində qurulur, eyni zamanda, klassik funksional sistemlə əlaqələndirilir.

C.Cahangirovun mahnı yaradıcılığında nəzərdən keçirdiyimiz nümunələrdə instrumental müşayiətin böyük rol oynadığını və onun forma yaradılmasının əsas amili kimi çıxış etdiyini görürük. Bəzən vokal partiyada melodiya o qədər də geniş inkişaflı olmasa da, fortepiano partiyasında musiqi materialı variasiyalı inkişaf etdirilərək, kulminasiyaya çatdırılır, musiqi dramaturgiyasının hərəkətverici qüvvəsinə çevrilir.

C.Cahangirovun mahnılarında məqamlardan istifadə yolları müxtəlifdir. Mahnı melodiyaları milli məqamlara əsaslanır. Melodiyanın quruluşunda məqamın istinad dayaq pillələri böyük rol oynayır. Eyni bir məqam çərçivəsində hərəkət və ya bir məqamdan digərinə keçid sərbəstliklə və məntiqi şəkildə həyata keçirilir. Bəstəkar məqamlardan istifadə məsələlərində klassik muğam qanunlarına əsaslanmaqla yanaşı, onlara yeni, özünəməxsus cizgilər gətirmişdir.

C.Cahangirov özünün bənzərsiz mahnı üslubunu yaratmış, musiqi sənətimizə yeni tipli mahnılar gətirmişdir. Bəstəkarın musiqi təfəkkürü həmişə milli məqam-intonasiyalarla dərindən bağlı olduğu üçün C.Cahangirovun mahnıları ilə milli mahnı ənənələri daha da inkişaf etmişdir.

Beləliklə, C.Cahangirovun mahnılarının tədqiqi bu janrın bəstəkarın yaradıcılığında önəmli yerinin, musiqi üslubunun formalaşmasında rolunun, musiqi dilinin əsas xüsusiyyətlərinin üzə çıxarılmasında mühüm əhəmiyyətə malikdir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur**:

1. C.Cahangirovun mahnı yaradıcılığı. // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. "Mədəni-maarif" jurnalı. Bakı, 2011, s. 56-58.
2. C.Cahangirovun yaradıcılığında muğam ənənələrinin təzahürü. / Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin yolu. ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları. Bakı, 2012. s. 112-113.
3. C.Cahangirovun yaradıcılığının əsas üslub xüsusiyyətləri. // "Musiqi dünyası" jurnalı, № 3/60, 2014. s. 79-81.
4. C.Cahangirovun mahnı və romanslarında musiqi ənənələrinin təcəssümü. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XIII Beynəlxalq elmi-praktiki konfransın materialları. ADMİU, Bakı, 2014. s. 46-47.
5. C.Cahangirovun mahnılarının janr və üslub xüsusiyyətləri. // "Konservatoriya" jurnalı, 2014, № 1 (2). s. 23-27.
6. C.Cahangirovun yaradıcılığında mahnı janrının rolu. // "Rast" Uluslararası Muzikoloji Dergisi, cilt III, sayı 2, Son bahar sayısı, 15 eylül 2015. s. 1031-1036.
7. Традиции народно-фольклорной музыки в творчестве Джахангир Джахангирова. / «Научные исследования в сфере гуманитарных наук: открытия XX века». Материалы IV Международной научной конференции. 22-23 сентября 2016 года, Пятигорск. с. 214-217.
8. C.Cahangirovun yaradıcılığında muğamdan istifadə qaydaları. // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2016. № 21, s. 127-130.
9. C.Cahangirovun mahnılarının məqam xüsusiyyətləri. // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. "Mədəniyyət dünyası" jurnalı, XXXI, Bakı, 2016. s. 95-100.

**Дильбер Закир гызы Ахмедова**

**«Особенности песенного творчества
Джангира Джангирова»**

## РЕЗЮМЕ

В диссертации рассматривается песенное творчество выдающегося азербайджанского композитора Джангир Джангирова. Автор дает характеристику песен в связи с их тематикой, жанровыми особенностями. Особо подчеркивается опора на национальные корни – на народную песню и мугам, которые творчески претворяются композитором в песенном творчестве, и это привносит новые черты в музыкальный язык песен.

Диссертация состоит из введения, 3-х глав, заключения и библиографии.

**I глава** диссертации – **«Роль песенного жанра в творчестве Дж.Джангирова»** состоит из 2-х разделов: **1.1. «История создания и круг тематики песен Дж.Джангирова»; 1.2. «Жанровые и стилистические особенности песен Дж.Джангирова»**

**II глава – «Анализ ладовых основ песен Дж.Джангирова»** состоит из 2-х разделов: **2.1. «Песни написанные в едином ладе»; 2.2. «Песни написанные в разных ладах».**

**III глава – «Построения формы и мелодики песен Дж.Джангирова и их основные черты»**

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа, на примере рассмотренных песен из творчества Дж.Джангирова.

**Dilbar Zakir Ahmadova**

## "Features of Jahangir Jahangirov's songmaking"

## SUMMARY

In the thesis is considered song creativity of prominent Azerbaijani composer J.Jahangirov. The author gives the characteristic of songs connected with their subjects, genre features. The support on national roots - on the national song and mugham which are creatively realised by the composer in song creativity is especially underlined and introduces new lines in musical language of songs.

The thesis consists of an introduction, 3 chapters, conclusion and bibliography .

The **I chapter** of the dissertation – **"The role of the song genre in the work of Jahangirov"** consists of 2 chapters: **1.1. "The history of the creation and the range of themes of the songs of J.Jahangirov"; 1.2. "Genre and Stylistic Features of Songs by J.Jahangirov"**

**II chapter – "Analysis of the melodious foundations of the songs of J.Jahangirov"** consists of 2 chapters: **2.1. "Songs written in one mood"; 2.2. "Songs based on a some moods"**

**III chapter – "The main features of the structure of the form of the melodies of the songs of J.Jahangirov"**

Finally, conclusions and generalizations of the musical analysis are given, on the example of the considered songs from the work of J.Jahangirov.

Çapa imzalanıb: 26.05.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имена УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**ДИЛЬБЕР ЗАКИР гызы АХМЕДОВА**

# ОСОБЕННОСТИ ПЕСЕННОГО ТВОРЧЕСТВА ДЖАНГИРА ДЖАНГИРОВА

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по искусствоведению**

**Баку – 2017**